Azərbaycan.- 2021.- 27 aprel. S. 3.

# İKT sahəsində çalışan qadınların sayı artır

**"İKT-də qızlar" mövzusunda keçirilən beynəlxalq konfrans qızların və qadınların müasir texnologiyaların tətbiqində getdikcə artan rolunu araşdırmışdır.**

Tədbir İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM), Texnologiyalarda Azərbaycan Qadınları Assosiasiyası - FEMMES DIGITALES, B.EST Solution və "Bloom Group"la birgə keçirilmişdir.

Konfransda giriş nitqi ilə çıxış edən İİTKM-in icraçı direktoru Vüsal Qasımlı qadınların informasiya kommunikasiya texnologiyalarında artan rolundan danışmışdır. Bildirilmişdir ki, "Qızlar İnformasiya və Kommunikasiya Texnologiyaları Günü" hər il aprel ayının dördüncü cümə axşamı qeyd olunur. Bu, müasir dünyamızda ən çox diqqət yetirilən vacib sahələrdəndir. Odur ki, sözügedən mövzunun aktuallığı da getdikcə artır. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Telekommunikasiya Birliyi dünyanın ən sürətlə inkişaf edən sektorunda qadınların karyera imkanlarının təşviqinin vacibliyini vurğulayır, bu sahədə həllivacib məsələlərin araşdırılmasına diqqət yetirir.

Qeyd olunmuşdur ki, kodlaşdırma, tətbiqlərin hazırlanması və kompüter elmlərini öyrənən qızlar və gənc qadınlar artıq İKT sektorunda uğurlu karyera qurmaqla yanaşı, həm də bacarıqları ilə seçilə biləcəkləri digər sahələrlə müqayisədə böyük üstünlüklər qazanırlar: "Qadınların müasir texnologiyalara getdikcə artan marağı onlara yaradıcılıq və bədii istedadlarını daha geniş çərçivələrdə tətbiq etməyə yeni imkanlar yaradır. Bu baxımdan onların fəaliyyətinin müxtəlif sahələrinin təşviqi xüsusi əhəmiyyət kəsb edir".

O da nəzərə çatdırılmışdır ki, gənc xanımların STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) bacarıqlarının və biliklərinin dünyanın müasir tələbləri səviyyəsində artırılması günümüzün vacib məsələlərindəndir: "Bu sahədə müəyyən statistik rəqəmlərin araşdırılması Azərbaycanda qadınların xüsusi çəkisinin bir çox sahələrdə artdığını təsdiq edir. Belə ki, ölkəmizdə müəllimlərin ümumtəhsil müəssisələrində 81, orta ixtisas təhsili müəssisələrində 77,9, ali təhsil müəssisələrində 54,8 faizi, həkimlərin isə üçdən ikisi qadınlardır. Bundan başqa, bütün təhsil alanların ümumtəhsil müəssisələrində 46,4, orta ixtisas təhsili müəssisələrində 62,4, ali təhsil müəssisələrində isə 48,9 faizini qızlar təşkil edir. Azərbaycanda elmin müxtəlif sahələrində çalışan qadınların sayı da kişilərə nisbətən çoxdur. Belə ki, elmi işçilərin 58,1 faizi qadınlardan ibarətdir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,6, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,3 dəfə artmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən 10-u qadındır.

Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında da fəal iştirak edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi ilkin məlumatlara əsasən 48,2 faizdir. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 29, sahibkarlar arasında 21,3 faizdir. Parlamentdə qadın deputatların xüsusi çəkisi isə 18,3 faizə çatmışdır".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***